MOORE

Moore Azerbaijan
102A, Jalil Mammadguluzada Street
Baku,Azerbaijan, AZ1022
T +994 12 490 77 47/48/49
F +994 12 490 77 50
baku@moore.az
www.moore.az

## MÜSTƏQİL AUDİTORLARIN HESABATI

**"DİAMED CO" MMC-nin təsisçillərinə**

### Rəy

Biz "Diamed Co" MMC-nin ("Şirkət") 31 Dekabr 2021-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də, əsas mühasibat prinsiplərinin icmalı da daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim fikrimizcə, maliyyə hesabatları 31 Dekabr 2021-ci il tarixinə Şirkətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirir.

### Rəy üçün əsas

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan öhdəliklərimiz hesabatımızın Maliyyə Hesabatları üzrə Auditorların Öhdəlikləri bölməsində əks olunmuşdur. Biz Peşəkar Mühasiblərin Etika Məcəlləsi üzrə Beynəlxalq Etika Standartları Şurasının (İESBA) prinsiplərinə uyğun olaraq Şirkətdən ayrıyıq və digər etika öhdəliklərimizi bu tələblər və İESBA Kodeksi əsasında həyata keçirmişik. Biz rəyimizin əsasını təşkil edən yetərli və müvafiq audit dəlilləri əldə etdiyimizi hesab edirik.

### Rəhbərliyin və maliyyə hesabatlarının idarə edilməsi üzrə məsul tərəflərin öhdəlikləri

Rəhbərlik bu maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, hesabatlarının saxtakarlıq və ya səhvlərdən irəli gələn əhəmiyyətli təhriflər olmadan tərtib edilməsi üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik Şirkətin fəaliyyətin fasiləsizliyi prinsipi əsasında işini davam etdirmə potensialını qiymətləndirmək, müvafiq olduqda daimilik prinsipi ilə bağlı məsələləri açıqlamaq və rəhbərlik Şirkəti ləğv etmək və ya fəaliyyətini dayandırmaq istəyənədək, yaxud bunu etmək üçün real seçimi olmayanadək hesabatlılıqda fəaliyyətin fasiləsizliyi prinsipini istifadə etmək üzrə məsuliyyət daşıyır. İdarəçilik üzrə məsul tərəflər Şirkətin maliyyə hesabatvermə prosesinə nəzarət etmə öhdəliyi daşıyır.

MOORE

**Maliyyə hesabatlarının auditi üzrə auditorların öhdəlikləri**

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında saxtakarlıq və ya səhvlərdən dolayı əhəmiyyətli təhriflərin mövcud olmadığına təminat vermək və rəyimizi əks etdirən auditor hesabatı təqdim etməkdir. Təminat olduqca önəmli olsa da, Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit yoxlamasının hər zaman mövcud olan təhrifləri aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlərdən irəli gələ və bu maliyyə hesabatları əsasında verilmiş iqtisadi qərarlara ciddi təsir göstərə bilər.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq əlbir olma, saxtalaşdırma, məqsədli buraxma, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur.

- Mövcud şərtlərdə müvafiq olacaq, lakin Şirkətin daxili nəzarətinin səmərəliliyi ilə bağlı rəy bildirmək məqsədi daşımayan audit prosedurları hazırlamaq üçün auditə müvafiq daxili nəzarət haqqında anlayış əldə edirik.

- İstifadə olunan uçot siyasətlərinin, uçot smetalarının və rəhbərlik tərəfindən açıqlanan əlaqədar məlumatların müvafiqliyini təhlil edirik.

- Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin müvafiqliyinə və Şirkətin fəaliyyətin fasiləsizliyi prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Bizim yekun rəyimizdə ciddi qeyri-müəyyənlik mövcuddur deyilərsə, auditor hesabatımızda maliyyə hesabatlarında əlaqədar məlumatlara diqqət çəkməyimiz, yaxud da bu cür məlumatlar müvafiq olmazsa, rəyimizi dəyişdirməyimiz tələb olunur. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər Şirkətin işində fəaliyyətin fasiləsizliyi prinsipini poza bilər.

- Maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib etdirmədiyini təhlil edirik.

Biz auditin və mühüm audit tapıntılarının, o cümlədən audit yoxlaması zamanı daxili nəzarətdə aşkarladığımız mühüm çatışmazlıqların nəzərdə tutulan əhatə dairəsi və zamanlaması ilə bağlı idarəetmə üzrə məsul tərəflərlə əlaqədə oluruq.

Moore Azərbaycan

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti MOORE STEPHENS AZƏRBAYCAN Limited Liability Company The Republic of Azerbaijan

Bakı, Azərbaycan

16 may 2022-ci il

**"DİAMED CO" MMC**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
**(Azərbaycan manatı ilə ifadə olunmuşdur)**

| | Qeyd | 2021 | 2020 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əsas vəsaitlər | 5 | 7,379,125 | 7,919,197 |
| Qeyri-maddi aktivlər | 6 | 19,844 | 22,049 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **7,398,969** | **7,941,246** |
| **Cari aktivlər** | | | |
| Mal materiallar | 7 | 1,464,239 | 776,933 |
| Pul vəsaitləri və onların ekvivalenti | 8 | 208,195 | 40,760 |
| Debitor borclar | 9 | 1,579,079 | 644,334 |
| Digər aktivlər | 10 | 2,050,786 | 1,178,658 |
| **Cəmi cari aktivlər** | | **5,302,299** | **2,640,685** |
| **Cəmi aktivlər** | | **12,701,268** | **10,581,931** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 11 | 9,519,935 | 9,519,935 |
| Bölüşdürülməmiş mənfəət | | 1,410,737 | 53,651 |
| **Cəmi capital** | | **10,930,672** | **9,573,586** |
| **Öhdəliklər** | | | |
| Kreditor borclar | 12 | 199,796 | 45,732 |
| Əlaqə tərəflərə olan öhdəliklər | 19 | 410,080 | 893,079 |
| Dividend öhdəlikləri | | 775,000 | - |
| Digər öhdəliklər | 13 | 385,720 | 69,534 |
| **Cəmi öhdəliklər** | | **1,770,596** | **1,008,345** |
| **Cəmi kapital və öhdəliklər** | | **12,701,268** | **10,581,931** |

Samirə Hüseynova
Direktor

Mürsəl Əsədov
Baş mühasib

Bakı, Azərbaycan Respublikası

16 may 2022-ci il

9-22-ci səhifələrdə göstərilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir

**"DİAMED CO" MMC**
**MƏCMU GƏLİR HAQQINDA HESABAT**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
**(Azərbaycan manatı ilə ifadə olunmuşdur)**

| | Qeyd | 2021 | 2020 |
|---|---|---|---|
| Satış | 14 | 7,044,088 | 3,642,133 |
| Satışların maya dəyəri | 15 | (4,175,077) | (2,206,035) |
| **Xalis gəlir** | | **2,869,011** | **1,436,098** |
| İnzibati xərclər | 16 | (414,625) | (330,441) |
| **Əməliyyat gəliri** | | **2,454,386** | **1,105,657** |
| Məzənnə fərqindən yaranan xalis zərər | | (1,029) | (14,946) |
| Sair xərclər | | (42,620) | - |
| **Mənfəət vergisindən əvvəlki gəlir** | | **2,410,737** | **1,090,711** |
| Mənfəət vergisi xərci | 17 | - | - |
| **İl üzrə mənfəət** | | **2,410,737** | **1,090,711** |
| Digər məcmu gəlir | | - | - |
| **İl üzrə cəmi məcmu gəlir** | | **2,410,737** | **1,090,711** |

Samirə Hüseynova
Direktor

Mürsəl Əsədov
Baş mühasib

Bakı, Azərbaycan Respublikası

16 may 2022-ci il

**"DİAMED CO" MMC**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
**(Azərbaycan manatı ilə ifadə olunmuşdur)**

| | Nizamnamə kapitalı | (Yığılmış zərər) / Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **1 Yanvar 2020-ci il tarixinə qalıq** | **9,519,935** | **(1,037,060)** | **8,482,875** |
| İl üzrə cəmi məcmu gəlir | - | 1,090,711 | 1,090,711 |
| **31 Dekabr 2020-ci il tarixinə qalıq** | **9,519,935** | **53,651** | **9,573,586** |
| İl üzrə cəmi məcmu zərər | - | 2,410,737 | 2,410,737 |
| Elan edilmiş dividendlər | - | (1,053,651) | (1,053,651) |
| **31 Dekabr 2021-ci il tarixinə qalıq** | **9,519,935** | **1,410,737** | **10,930,672** |

Samirə Hüseynova
Direktor

Mürsəl Əsədov
Baş mühasib

Bakı, Azərbaycan Respublikası

16 may 2022-ci il

**"DİAMED CO" MMC**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
**(Azərbaycan manatı ilə ifadə olunmuşdur)**

| | Qeyd | 2021 | 2020 |
|---|---|---|---|
| **Mənfəət vergisindən əvvəlki mənfəət/ (zərər)** | | 2,410,737 | 1,090,711 |
| *Düzəlişlər:* | | | |
| Əsas vəsaitlərin köhnəlməsi | 5 | 663,671 | 202,368 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 6 | 2,205 | 2,414 |
| Əsas vəsaitlərin silinməsi | | - | 192,541 |
| Məzənnə fərqindən yaranan xalis zərər | | 1,029 | 14,946 |
| **Əməliyyat fəaliyyətindəki dəyişikliklər** | | | |
| Mal materiallar | | (687,306) | 26,103 |
| Debitor borclar | | (934,745) | (586,845) |
| Digər aktivlər | | (872,128) | (306,399) |
| Kreditor borclar | | 154,064 | (379,382) |
| Digər öhdəliklər | | 316,186 | (11,645) |
| Ödənilmiş mənfəət vergisi | | - | - |
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **1,053,713** | **244,812** |
| **Investisiya fəaliyyətindəki dəyişikliklər** | | | |
| Əsas vəsaitlərin alınması | 5 | (123,599) | (93,290) |
| Qeyri-maddi aktivlərerin alınması | 6 | - | (3,495) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(123,599)** | **(96,785)** |
| **Maliyyə fəaliyyətindəki dəyişikliklər** | | | |
| Əlaqə tərəflərə olan öhdəliklər | | (482,999) | (132,000) |
| Elan edilmiş dividendlər | | (278,651) | - |
| **Maliyyə fəaliyyəti üzrə (istifadə edilən)/ daxil olan xalis pul vəsaitləri** | | **(761,650)** | **(132,000)** |
| Pul və pul vəsaitlərinə təsir | | (1,029) | (70) |
| **Pul və pul vəsaitlərində xalis dəyişilik** | | **167,435** | **15,957** |
| **Pul və pul vəsaitləri, ilin əvvəlinə** | 8 | **40,760** | **24,803** |
| **Pul və pul vəsaitləri, ilin sonuna** | 8 | **208,195** | **40,760** |

Samirə Hüseynova
Direktor

Mürsəl Əsədov
Baş mühasib

Bakı, Azərbaycan Respublikası

16 may 2022-ci il